# HAKİMİYYƏT ORQANLARININ QOLÇOMAQLARA QARŞI «DÜŞMƏN» SİYASƏTİ (XX ƏSRİN 20-30-CU İLLƏRİ)

**N.Z.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***Mammadov Nuru@mail.ru***

*Məqalədə 1920-ci aprel çevrilişindən dərhal sonra sovet hakimiyyət orqanlarının Azərbaycan xalqına qarşı zorakılıq və qəddarlıq siyasəti, xüsusilə qolçomaqlara qarşı haqsız və düşmən siyasəti konkret tədqiq olunur. Məqalədə XX əsrin 20-30-cu illərdə sovet hakimiyyət orqanlarının qolçomaq sinfinə qarşı apardığı düşmən siyasəti nəticəsində qeyri-azərbaycanlılardan ibarət təşkil edilmiş «üçlüklər» tərəfindən qolçomaq siyahısının tərtib edilməsi, on minlərlə namuslu adamın günahsız yerə güllələnməsi, həbs edilməsi və sürgün edilməsi və bu siyasətə qarşı qolçomaqların hakimiyyət orqanlarının kollektivləşmə siyasətinə qarşı apardıqları ədalətli mübarizə formaları tədqiq olunmuşdur.*

Sovet hakimiyyətinin qolçomaqlara qarşı apardığı siyasət, ayrı-ayrı mərhələlərdə qolçomaq məsələsi və onlara olan müxtəlif münasibətlər, qolçomaqlara qarşı sovet hakimiyyət orqanlarının birmənalı «düşmən» siyasəti respublika tarixşünaslığında (1) kifayət qədər işıqlandırılmışdır. Sovet dövründə yazılan həmin tədqiqat əsərlərində hakim ideologiyanın sifarişlərindən kənara çıxmaq mümkün olmadığından birmənalı şəkildə qolçomaqlara «düşmən» damğası vurulur və onlar yad ünsür, yad element kimi ağına-bozuna baxmadan haqq-nahaq yeni quruculuğun günahkarları kimi göstərilirdi. Ancaq bu, heç də belə deyildir. Nə yaxşı ki, Azərbaycan Respublikası Dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də yenidən bərpa olundu və xalqımız müstəqil dövlətə malik oldu. Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin dediyi kimi, tarix o zaman tarix olar ki, o, obyektiv həqiqətlərə, tarixi reallıqlara, doğru-düzgün faktlara və rəqəmlərə əsaslanaraq yazılsın. Bu baxımdan Azərbaycan xalqının 20-30-cu illərinin müxtəlif problemlərini, o cümlədən qolçomaqlara münasibət məsələlərini araşdırmaq və tədqiq etmək istiqamətində monoqrafiyalar, elmi-tədqiqat əsərləri (2) yazıldı. Həmin dəyərli elmi əsərlərdə qolçomaqlar məsələsinə yeni müstəvidən yanaşılmış və həmin mürəkkəb ictimai-siyasi proseslər və baş vermiş tarixi olaylar obyektiv şərh edilmişdir.

Bir mühüm məsələni də qeyd etmək vacibdir: respublika tarixşünaslığında qolçomaqlara müasir obyektiv münasibət məsələlərinin işıqlandırılması əsasən ötən əsrin 20-ci illərin sonunu - 30-cu illərini əhatə edir. Doğrudur, qolçomaqların bir sinif kimi sıxışdırılmasından ləğv edilməsi siyasətinə keçid ÜİK (b) P-nin XV qurultayının (dekabr 1927) qərarlarına uyğun olaraq Azərbaycanda 1929/1930-cu təsərrüfat ilindən başlanıldı. Ancaq nədənsə qolçomaqlara «düşmən» münasibətdə olan hakimiyyət orqanları aprel çevrilişindən az sonra mübarizəyə qalxdı. Bunu arxiv sənədləri təsdiq edir. Problemə müasir yanaşma metodologiyasından çıxış edərək bildirmək istəyirik

ki, 20-ci illərin əvvəllərindən başlayaraq, yəni Sovet hakimiyyətinin ilk günlərindən qolçomaqlara qarşı dövlət siyasətinin bir çox vacib istiqamətləri müstəqil bir tədqiqat mövzusu kimi obyektiv araşdırılmayıb. Halbuki 20-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan kəndlərinin və Azərbaycan kəndlilərinin hörmətli ağsaqqalları, ziyalıları və varlı xeyriyyəçiləri olan qolçomaqlar, sözün əsil mənasında, elin-obanın sayılıb-seçilən və nüfuzlu söz sahibi olan insanları, rəhbərləri olmuşlar. Ancaq nə edək ki, kirpi cildinə girmiş dövlət hakimiyyəti orqanlarının yaramaz rəhbərləri olan erməni-rus başçıları kəndin varlı və imkanlı ağsaqqallarını «qolçomaq» siyahısına salmaqla onlara divan tutmuş, faciəli soyqırımı siyasəti yeritmişlər. Bu ağır siyasi prosesləri ilk arxiv sənədləri əsasında tədqiq etməyi qarşımıza başlıca məqsəd kimi qoymuş və çalışmışıq ki, məsələni daha ətraflı və müasir müstəvidən, obyektiv tədqiq edək. Bu baxımdan ilk rəsmi sənədlər və arxiv mənbələri diqqətimizi cəlb etdi. 1920-ci il mayın 5-6-da Ümumbakı partiya konfransı oldu. Həmin konfransda daşnak liderlərindən biri A.İ.Mikoyan «Hazırkı vəziyyət» haqqında etdiyi çıxışında xanların, bəylərin və qolçomaqların məhv edilməsi siyasətini partiya vəzifəsi kimi qarşıya qoyur və onlara qarşı sinfi mübarizəni sürətləndirməyi vacib bilir (3, 11). Həmin çıxış əsasında Ümumşəhər konfransı belə bir qərar qəbul edir: «Azərbaycanda sovet çevrilişindən sonra partiyanın ən mühüm vəzifəsi...bəylərin, xanların və ağaların torpaqlarını müsadirə etməkdən» ibarətdir (4, 18). Beləliklə, yoxsul kəndlilərə arxalanmaqla kənddə sinfi mübarizənin dərinləşməsinin əsası qoyulur və qolçomaqlara düşmən obrazı yaradılır.

Qolçomaqlara qarşı mübarizənin ilk proqramı və istiqamətləri AK (b)P-nin ikinci qurultayında (oktyabr 1920) hazırlandı. Qurultay Azərbaycanın hər yerində Sovet hakimiyyətinin möhkəmləndirilməsinin yalnız Sovetlər sistemi vasitəsilə mümkün olduğunu bildirdi və kənddə iş haqqında məruzəni dinləyərək qeyd etdi ki, partiyanın və sovet orqanlarının kənddə əsas vəzifəsi mülkədar torpaqlarının, taxıl və başqa ehtiyatlarının müsadirə edilməsindən, onu yoxsul kəndlilər arasında bölüşdürülməsini başa çatdırmaqdan, kənddə sinfi təbəqələşməni həyata keçirməkdən və ən yoxsul kəndliləri Sovet hakimiyyətinin dayağına çevirməkdən ibarətdir (4, 24).

Xüsusilə partiyanın XV qurultayından (dekabr 1927) sonra sinfi mübarizə dalğası daha da şiddətləndi. Qurultay ölkə tarixinə kənd təsərrüfatının kollektivləşdirilməsini genişləndirmək və sosializmin bütün cəbhə boyu hücumuna geniş hazırlıq görmək vəzifələrini qarşıya qoydu və qurultay belə bir qətnamə qəbul etdi. Yoxsulların hamısını və ortabab kəndlilərin çox hissəsini kooperasiyaya cəlb etməklə qolçomaqları sıxışdırıb aradan çıxarmağın vaxtı çatmışdır.

Beləliklə, XV partiya qurultayından sonra mərkəzi və yerli hakimiyyət orqanları qarşısında aşağıdakı konkret vəzifələr qoyuldu: 1) yoxsullara arxalanaraq; 2) ortabablarla möhkəm ittifaqa girərək; 3) qolçomaqlara qarşı hücuma keçmək və onları sıxışdırıb məhv etmək (5, 16).

1927/28-ci illərdə respublikada yoxsul təsərrüfatları 41,8 faiz, ortabab təsərrüfatları 51,4 faiz, qolçomaq təsərrüfatları 6,8 faiz idi (6, 46). Buna baxmayaraq qolçomaqlar daha çox kənd təsərrüfatı vergisi verirdi. Qolçomaqların mövcud durumu, say tərkibi, iqtisadi və ictimai-siyasi mövqeyi ilə əlaqədar tarixşünaslıq ədəbiyyatlarının diqqətlə araşdırılması və arxiv sənədlərinin təhlili bizə belə bir fikir söyləməyə tamamilə haqq qazandırır ki, 20-30-cu illərdə onlar sovet hakimiyyətinə qarşı mübarizə aparan güclü siyasi qüvvə olmamışlar. Bu baxımdan Azərbaycan şəraitində qolçomaq

təsərrüfatları sosialist kənd təsərrüfatını məhv edə biləcək qüvvəyə malik deyildilər (3, 112). Bunu faktlar, rəqəmlər və olaylar da təsdiq edir.

Respublikada elliklə kollektivləşmə siyasətinə keçidlə əlaqədar 1929-cu ildən başlayaraq qolçomaqların bir sinif kimi ləğvi siyasətinə keçid başlandı və bunun nəticəsində Azərbaycan kəndində sinfi mübarizə daha da şiddətləndi.

Qolçomaqları təcrid etmək və ya onları məhv etmək siyasəti o qədər də asan məsələ deyildi. Çünki qolçomaqlar kəndin və rayonun sayılıb-seçilən nüfuz sahibi olan ağsaqqalları sayılırdılar və böyük tayfa birliklərinə, çoxsaylı nəsillərə malik idilər. Söhbət minlərlə yox, on minlərlə insan həyatından, onların bu günkü və gələcək taleyindən və hətta sonu məlum olmayan mövcud siyasi rejimin nəticələrindən gedirdi. Məsələ olduqca mürəkkəb və çətin idi. Bütün bu deyilənləri nəzərə alan partiya və sovet hökuməti qolçomaqlara qarşı mübarizə problemini rəsmi qərarlarla həyata keçirməyə başladı və bütün iqtisadi və siyasi güc rəhbərlərini açıq və ya gizli formada bu işə səfərbər etdi. Bu məqsədlə bir çox qərarlar qəbul edildi: YİK (b) MK-nın «Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında» 1930-cu il 5 yanvar tarixli qərarı (7, 735), SSRİ MİK və XKS-in «Elliklə kollektivləşmə rayonlarında… qolçomaqlarla mübarizə tədbirləri haqqında» 1930-cu il 1 fevral qərarı (8, 105), Azərbaycan SSR XKS-in 1930-cu il 30 mart tarixli qərarı (9, v.116), Azərb.SSR MİK və Azərb.SSR XKS-in 1930-cu il 31 mart «muzdur əməyinin qorunması işində aşağı Sovet orqanlarının fəaliyyətinin gücləndirilməsi haqqında» qərarı (9, v.1) və başqa qərarlar qolçomaqlara qarşı mübarizəni gücləndirməyi tələb etdi. Həmin qərarlara uyğun olaraq 1930-cu il yanvarın 17-də müttəfiq respublikaların MİK sədrlərinin və yerli sovetlərin icraiyyə komitələri sədrlərinin iştirakı ilə keçirilən geniş müşavirədə kənddə sinfi mübarizənin və qolçomaqlara qarşı mübarizədə mövcud nöqsanları göstərildi (10, v.1) və onu aradan qaldırmaq, qolçomaq ünsürlərinin bütün hücumlarını ləğv etmək üçün Sovetlərə geniş səlahiyyət verildi (10, v.6). Həmin il yanvarın 30-dakı müşavirədə isə M.İ.Kalinin öz çıxışında qolçomaqları bir sinif kimi ləğvetmə siyasətinə keçməyi bildirdi (10, v.1-5). Azərbaycan SSR XKS-in 30 mart tarixli Təlimatı göstərişi ilə bütün İcraiyyə Komitələrinə və yerli Sovetlərə qolçomaqların siyahısını tərtib etmək ixtiyarı verildi. Bu göstəriş əvvəlki illərdən (1927-ci ildən) qolçomaq obyektlərinin uçota alınmasının Sovetlərin ixtiyarına keçməsi (9, i.39-45, v.2) işini tamamladı və Sovetləri tam səlahiyyətli etdi.

Qolçomaqlar üç formada mübarizə aparırdılar: 1) Kolxozlara qarşı mübarizə; 2) təbliğat; 3) öz adamlarını kolxozlara keçirmək (3, 109). Qolçomaqlara qarşı haqsız mübarizə Ak (b)P MK-nın 13 avqust 1928-ci il qərarı və AK (b)P MK-nın 1928-ci il oktyabr plenumunun qərarı (4, 413,418) ilə daha da şiddətləndi. Həmin qərarlarda deyilirdi ki, qolçomaqların və bəylərin əllərində olan torpaqlar və otlaq sahələri dərhal geri alınsın, kolxozlardan və kooperasiyalardan yad ünsürlər təmizlənsin, yoxsul və muzdurların sovet tərəfinə cəlb edilməsinə diqqət artırılsın, banditizmə qarşı mübarizə gücləndirilsin. Beləliklə, Azərbaycan kəndində sinfi mübarizə şiddətləndi. Hakimiyyət orqanları Azərbaycanın hər yerində geniş həbslərə başladılar. 1928-ci ilin mayında Qazax qəzasından 13 ailə, Kürdüstan qəzasından 13 ailə, DQMV-dən 10 ailə, Naxçıvan MSSR-dən 6 ailə, Ağdam-18 ailə, Nuxa 6 ailə, Lənkəran 5, Göyçay 4, Quba 5 ailə bəy-xan adı ilə sürgün edildi (11, v.181-187).

Qolçomaqlara qarşı düşmən münasibət onları qəzəbləndirdi. Qazax, Ağdam,

Cəbrayıl, Quba, Şamxor və başqa yerlərdə qolçomaqların açıq çıxışları oldu (11, i.261, v.181-187). Bu da səbəbsiz deyildi. Qolçomaqlar deyirdilər ki, əgər bizim torpağımızı əlimizdən alsalar, onların başını üzəcəyik, çünki dövlət düzgün rəhbərlik edə bilmir, ticarət monopoliyası onların əlindədir, bizə ticarət etmək qadağan edilib, xalq acdır və i.a. Dəllər camaatı qolçomaqlara qoşulub yerli hakimiyyət orqanlarının rəhbərlərini öldürməklə hədələyirdilər.

Vəziyyətin kritik həddə çatması Mərkəzi narahat etməyə bilməzdi. İş o yerə çatdı ki, AK (b)P MK-nın rəhbəri Gikalo 1928-ci ilin martında məxfi qrif ilə rəsmi Moskvaya, ÜİK (b) P MK-ya, Molotova xüsusi material hazırlayıb göndərdi (11, s.231, i.5, v.3-5). Yeri düşmüşkən qeyd etmək lazımdır ki, həmin material mövcud vəziyyəti və siyasi durumu az-çox təhlil etmək baxımından çox əhəmiyyətli bir sənəddir. Həmin sənəddə Azərbaycanda qolçomaqlara qarşı aparılan siyasətin səhv olduğu, kollektivləşmədə tələsikliyə yol verildiyi, AK (b) P MK rəhbərliyində ciddi nöqsanlar olduğu bildirilirdi.

Azərbaycan rəhbərliyi kənddə işi heç cür yaxşı apara bilmirdi. O, mərkəzin tapşırıqlarını «artıqlaması ilə» həyata keçirirdi. 1928-ci ilin noyabrında Ağcabədi rayonunun Hindarx kəndində 10 qolçomaq müəyyən edildi və ailəsi ilə qara siyahıya salındı. Qəribədir ki, bəzən həmin siyahılara 4,7,9 yaşlı cocuqlar da salınırdı, bir mərtəbəli daş binası (4 otaqlı), 3 desyatin bağı, 1 arabası, 1 atı, 2 öküzü olanlar «qolçomaq siyahısı»na salınırdılar (11, v.55-56). Belə qolçomaq siyahısına Ağdam qəzası yzrə 32 qolçomaq salınmışdı, 51 nəfərin siyahısı hazırlanmışdı (11, m.58-64).

1929-cu ilin aprelində Az.Mik-in sədri Ağamalıoğlunun VI Ümumazərbaycan Sovetlər qurultayında etdiyi məruzədə göstərilir ki, hazırda Azərbaycanda 3 min qolçomaq vardır (12). VII Ümumazərbaycan Sovetlər qurultayında (fevral 1931) Azərb. SSR XKS-in sədri D.Bünyadzadənin məruzəsində göstərilirdi ki, respublikada 1929-cu ildə 7.954 qolçomaq təsərrüfatı var idisə, hazırda 4.658 qolçomaq təsərrüfatı vardır (12 fevral, 1931). 1931-ci ilin yayında Cəlilabad rayonunda 240, Masallı rayonunda – 166, Şamxor rayonunda 147, Quba rayonunda – 124, Şamaxı rayonunda 120, Ağcabədi rayonunda – 67, Bərdədə – 70, Xızıda – 89, Ağsuda-86, Qaraməryəmdə – 69, Kürdəmir rayonunda 81, bütövlükdə Azərbaycanda 3.924 qolçomaq təsərrüfatı aşkar edilmişdi (9, f.379, ı.3, i.5892, v.1-2). Azərbaycan SSR XKS-in sədri D.Bünyadzadənin çıxışında göstərilir ki, 1930-cu ilin dekabrında qolçomaq təsərrüfatları təqribən 6 faiz (11, i.335, v.235) təşkil edir. Faktlardan aydın olur ki, kollektivləşməyə keçidlə əlaqədar Azərbaycan kəndinə əsil «hücum» başlanmışdı. «Troykaların» kolxoz «düşmənlərini» kənd camaatının gözü qarşısında əksinqilabçı kimi güllələməsi adi hal almışdı. Təkcə Ağdam rayonunda 540 kommunistdən 266-sı partiyadan çıxarılmış, 340 kolxozçu isə «qolçomaq-antisovet» ünsürü kimi güllələnmişdi (11, i.305, v.235). Məsələ həm də bundadır ki, qolçomaqların ləğvi məsələsini əslində «başa çatdıran», lakin onu bəhanə edən hakimiyyət orqanları «zibillənmiş» kadrları təzələmək bəhanəsi ilə xalqa ciddi zərbələr vurmaqda davam edirdilər. Belə bir fakt: 1935-ci ilin birinci yarısında respublikada 21 RİK sədri, 24 müavini, 40 katib, 44 şöbə müdiri, 57 instruktor, 26 təbliğatçı, 336 kənd soveti sədri, 339 katibi müxtəlif nöqsanlara görə vəzifədən çıxarılmışdı (13, 268). Həmin ilin 2-ci yarısında yenə 9 RİK sədri, 16 müavin, 8 katib, 11 şöbə müdiri, 321 kənd soveti sədri, 277 katib, 200 hesabdar vəzifədən çıxarılmışdı (14, v.25).

Mərkəz yerlərdə satqınçılıqla məşğul olan ictimai və şəxsi dayaqlar yaratmaq

üçün SSRİ MİK və XKS-in 1935-ci il iyulun 17-də «Kənd icraçıları haqqında» qərar verdi (14, s.26, i.601, v.26-28). Həmin qərara uyğun olaraq sovetlərdə kənd icraçısı vəzifəsi yaradıldı. Kənd icraçılarının başlıca vəzifəsi cinayətkar ünsürlərlə (qolçomaqlarla) mübarizə aparmaq, onlar haqqında müntəzəm milis orqanlarına xəbər vermək, ictimai qaydanı pozanlara qarşı mübarizə aparmaq idi. Bununla da xəbərçilik, çuğulluq, donosçuluq, satqınlıq süni şəkildə artırdı. Kənd icraçı vəzifələrinə daha çox satqınlıq xarakterinə malik olanlar təyin edilirdilər.

Respublikada qolçomaq siyahılarına düşənlərin sayı artırdı. 1930-cu ildə Azərbaycanda ailələri ilə birlikdə 50-60 min qolçomaq aşkar edildi. Təkcə Ucar rayonundan 300 qolçomaq sürgün edilmişdi (14, s.25, i.601, v.26-28). Baş Dövlət Siyasi İdarəsinin 2 fevral 1930-cu il tarixli əmri daha qəddar və amansız idi. Həmin əmrə əsasən Qafqazdan Urala 23 min, Qazaxıstana isə 5 min nəfər qolçomaq sürgün edilmişdi. Həmin əmrdə göstərilirdi ki, martın 15-nə qədər Azərbaycandan 500 nəfər qolçomaq «müəyyənləşdirilib» sürgün edilsin (15, 159).

1931-ci ilin iyununda olan AK(b)P MK plenumunun qərarı ilə «sinfi düşmənə sarsıdıcı zərbə endirilməli, qolçomaq sabotajı, təşviqatı, möhtəkirliyi ilə qəti mübarizənin diqqət mərkəzində» durmaq (4, 585) yerli təşkilatlara bir vəzifə kimi tapşırılırdı.

Beləliklə, aparılan tədqiqatdan, tarixşünaslıq materiallarından və külli miqdarda arxiv sənədlərindən aydın olur ki, respublikada sovet hakimiyyətinin qurulmasının ikinci günündən (aprelin 29-dan) başlayaraq Azərbaycan xalqının qəddar düşməni Pankratovun rəhbərlik etdiyi XI Ordunun Xüsusi Şöbəsi tərəfindən kütləvi həbslər aparılmağa başlandı və sonralar «kollektivləşmə» illərində on minlərlə ortabab kəndlilər və «qolçomaq» damğası vurulan varlı kəndlilər «bir sinif kimi» məhv edilməyə, onları «kolxoz süpürgəsi ilə» süpürüb təmizləməyə başladılar. Bu zorakılıqlara və haqsızlığa dözməyən kəndliləri məcburi çıxışlar etdiyi üçün banditizm adlandırıb, sovet hakimiyyətinin düşməni kimi güllələnməyə, həbs və sürgün etməyə başladılar. Respublikanın hər yerində fəaliyyət göstərən üçlüklər xalqımızı kütləvi şəkildə «qara siyahı»lara daxil edirdilər. Üçlüklər isə əsasən ermənilərdən ibarət idi (16, 4). Dinc və namuslu əməklə məşğul olan qolçomaqların normal yaşamalarına mane olan hakimiyyət orqanlarına qarşı özlərini müdafiə edən kəndlilər və qolçomaqlar 20-30-cu illərdə Naxçıvan, Şəki-Zaqatala, Gəncə, Şəmkir, Quba, Lənkəran, Qarabağ və Azərbaycanın, demək olar ki, hər yerində hakimiyyət orqanlarının törətdiyi özbaşınalıqlara və zorakılıqlara qarşı üsyanlar edirdilər. Bütün bunlar Azərbaycan xalqının haqlı tələblərindən doğan narazılıq hərəkətləri və müqavimət hərəkatı olub, mövcud siyasi rejimin qanlı vəhşiliklərinə qarşı haqqın və ədalətin hayqıran səsi və ədalətli mübarizəsi idi.

## ƏDƏBİYYAT


1. Əlimirzəyev X. Azərbaycan kəndi sovet hakimiyyəti illərində. Bakı: Azərnəşr, 1963, 208s.; Əliyev X. Azərbaycan Kommunist Partiyasının fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı: ADU, 1961, 414s.; Məmmədov E. Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə (1927-1929). Bakı: Azərb. SSR EA, 1961, 156s.; yenə onun: İstismarçı ünsürlərə qarşı mübarizədə Bakı fəhlələrinin Azərbaycan zəhmətkeş kəndlilərinə köməyi (1927-1929) // Azərb. SSR EA xəbərləri. 1958, №6; Yenə onun: Elliklə kollektivləşmə illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937). Bakı: Azərb. SSR EA, 1967,

151s.; Şıxlinski Z. Azərbaycan kəndində sovet quruculuğu (1933-1937). Bakı: Azərb. SSR EA, 1965, 236s.; yenə onun: Azərbaycan kəndində sovet quruculuğu (1926-1932). Bakı: Elm, 1975, s.238s.; Mirhadıyev M. Proletariat diktaturası haqqında Lenin təliminin Azərbaycanda həyata keçirilməsi. Bakı: Azərnəşr, 1963, 220s.; Qüdrətov D. Xalq təsərrüfatının bərpasına keçid dövründə Azərbaycan kəndində sinfi mübarizə // Azərb. SSR EA xəbərləri. 1961, №6; yenə onun: Bərpa dövrünün son illərində Azərbaycan kəndinə sinfi mübarizə // H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun elmi əsərləri. Kirovabad, 1962, №11; Токаржевский Е. Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства (1921-1925). Баку: АН Азерб. ССР, 1956, 276с.; X.Əhmədov. Azərbaycanda sovetlərin yaradılması və möhkəmləndirilməsi (1920-1925). Bakı: Azərnəşr, 1966, 186s.
2. Ziya Bünyadov. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331s.; Дж. Б. Гулиев. К истории образования второй республики Азербайджана. Баку: Елм, 1997, 163с.; Həsənli C. «Ağ ləkə»lərin qara kölgəsi. Bakı:Gənclik, 1991, 199s.; İbişov (İbrahimli) F. Azərbaycan kəndinhdə sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168s.; Məhərrəmov H. Getsin-gəlməsin. Bakı:Azərnəşr, 1992, 144s.; Manaflı H. Şəki üsyanları. Bakı: Azərnəşr, 2002, 220s.; C.Cəfərov. Azərbaycan kəndi kollektivləşmə illərində. 20-ci illərin sonu -30-cu illər. Bakı: Elm, 2008, 299s.; Hüseynbəyli H. XX əsrin 20-30-cu illərində Naxçıvan MSSR-də siyasi repressiya və onun nəticələri. Tariö elmləri nam. diss. Naxçıvan, 2006, 165s.
3. N.Məhərrəmov. Getsin gəlməsin. Bakı: Azərnəşr, 1992, 144s.
4. Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. 2 cilddə, I c. Bakı: Azərnəşr, 1987, 712s.
5. Коллективизация сельского хозяйства… 1927-1935 гг. М.: 1957, 450 с.
6. 20 лет Азербайджанской Советской Социалистической Республики. Ваку: Наука, Азернешр., 1940, 41 с.
7. Sov.İKP qətnamə və qərarları, 2 hissədə, II hissə, 735 s.
8. Советское законодательство СССР 1930, №9, 105 s.
9. AR. MDA, f.411, s.20, i.42, v116 (Z.B.Şıxlinski. göst. əsər. səh.187)
10. Rusiya Federasiyasının Dövlət Arxivi, f.3316, s.42, i.263, v.1
11. AR DSPİHA, f.1, s.74, i.261, v.181-187.
12. «Bakinskiy raboçiy» qəzeti, 1929, 2 aprel.
13. Azərbaycan tarixi. 7 cilddə VI c. Bakı: Azərnəşr, 2000, səh.268.
14. RFDA, f.3316, s.42, i.357, v.20
15. C.Cəfərov. Azərbaycan kəndi kollektivləşmə illərində. Bakı: Elm, 2008, 299s.
16. Z.Bünyadov. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331s.

## «ВРАЖДЕБНАЯ» ПОЛИТИКА ГОСУДАРСТВЕННЫХ ОРГАНОВ ПРОТИВ КУЛАКОВ (1920-30-Е ГОДЫ)

**Н.З.МАМЕДОВ**

### РЕЗЮМЕ

В статье конкретно исследуется жестокая насильственная политика, проводимая советскими государственными органами после апрельского переворота против азербайджанского народа, а особенно против кулачества. В статье также раскрывается роль созданных в 1920-30-к годы из неазербайджанцев «троек» готовивших списки кулаков и в последующем осуществляющих против них «враждебную» политику. В результате этой политики десятки тысяч невинных людей были расстреляны, арестованы и сосланы. Здесь раскрыта также и борьба, портив насильственных методов, которая началась против государственных органов в районах Азербайджана.

**THE “ANTAGONIST” POLICY OF ADMINISTRATIVE BODIES AGAINST KULAKS (1920-30 s)**

**N.Z.MAMMADOV**

**SUMMARY**

The article preciously investigates the violent and cruel policy of Soviet governmental bodies against Azerbaijani people, especially against kulaks after the April revolution.

The article also illustrates the role of non – Azerbaijani “triplet” of 1920-30 s listing the names of kulaks and realizing enmity policy aganist them. As a result of this policy ten thousand innocent people were shot, arrested and exiled. The struggle against violent methods which began in the regions of Azerbaijan against governmental bodies is reflected in the article as well.